View the original article

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Rüsum 15 dollardan 300 dollara qaldırıldı

Sentyabr 23, 2026




Polad zavodu

Azərbaycandan ixrac olunan vintlər (boltlar və qaykalar) üçün gömrük rüsumu kəskin artırılıb.

Nazirlər Kabinetinin sentyabrın 22-də qəbul etdiyi yeni qərara əsasən, bu məhsulların **hər 1000 kiloqramı üçün gömrük haqqı 15 dollardan 300 dollara** qaldırılıb. Yeni qayda 2029-cu ilin sonuna qədər qüvvədə olacaq.

Qərar dərc olunduqdan 30 gün sonra qüvvəyə minir.

Hökumət bu addımın səbəbini rəsmi olaraq açıqlamasa da, bəzi iqtisadçılar bunu yerli istehsalı dəstəkləmək siyasəti ilə əlaqələndirirlər. Bununla belə, onlar gömrük haqqının

birdən-birə bu qədər çoxaldılmasını düzgün saymırlar.

Son bir ildə Azərbaycanda bir çox sahələrdə rüsum və cərimələr artırılıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur